**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VÜSAL NASİR OĞLU CAVADOV**

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNUN KƏND TƏSƏRRÜFATI STRUKTURUNDA BAŞ VERƏN MÜASİR REGİONAL DƏYİŞİKLİKLƏR VƏ ONLARIN İDARƏ OLUNMASI

5401.01 – İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

**Dissertasiya işi AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** akademik **R.M.Məmmədov**

**Rəsmi opponentlər:** coğrafiya üzrə elmlər doktoru
**Z.N.Eminov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**K.B.Bayramov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin Coğrafiya fakultəsi, "İqtisadi və sosial coğrafiya" kafedrası

Müdafiə 08 dekabr 2017-ci il saat $14^{00}$ -da Azərbaycan Milli Elmlər Akademiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D 01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya ilə AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

Avtoreferat 06 noyabr 2017-ci ildə göndərilmişdir.

**D 01.091 Dissertasiya Şurasının**
**elmi katibi, c.ü.f.d.,dosent** **M.S.Həsənov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nın (2004-2008, 2009-2013, 2014-2018-ci illər) əsas istiqamətlərindən biri respublikanın regionlarında təsərrüfat sahələrinin, o cümlədən kənd təsərrüfatının davamlı inkişafının təmin olunmasıdır. Azərbaycanın zəngin kənd təsərrüfatı potensialına malik olmasına baxmayaraq, bu imkanlardan hələ də kifayət qədər istifadə olunmur. İqtisadi islahatlar şəraitində ölkədə həyata keçirilən struktur dəyişiklikləri kənd təsərrüfatının təbii-coğrafi potensialından kompleks istifadə edilməsi tələblərini qarşıya qoyur.

Müasir dövrdə kənd təsərrüfatının iqtisadi-coğrafi baxımdan öyrənilməsi və bazar münasibətləri şəraitində inkişaf qanunauyğunluqlarının elmi-nəzəri cəhətdən işlənib hazırlanması regionların perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan yaradır. Mövcud şəraitdə iqtisadiyyatın digər sahələrində olduğu kimi kənd təsərrüfatının da inkişafı əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin xammal ilə təminatı tələb edilir. Bu ilk növbədə aqrar-sənaye sahələrinin optimal vəziyyətdə fəaliyyəti, səmərəli ərazi təşkili və idarə edilməsi ilə bağlıdır. Məhz bu baxımdan Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının ərazi təşkilinin iqtisadi və sosial-coğrafi əsaslarının tədqiq edilməsi olduqca aktualdır.

**Tədqiqat işinin obyektinə** Quba-Xaçmaz iqtisadi rayonu və onun tərkibinə daxil olan Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən inzibati rayonlarında kənd təsərrüfatının ərazi təşkili aiddir.

**Tədqiqat işinin predmeti.** Quba-Xaçmaz iqtisadi rayonunun kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər və onların idarə olunmasıdır.

**Problemin öyrənilməsi səviyyəsi.** Quba-Xaçmaz iqtisadi rayonunun fiziki və iqtisadi-coğrafi problemlərinə, əhali və təsərrüfatın ərazi təşkilinə aid bir çox tədqiqat işləri yerinə yetirilmişdir. Regionda kənd təsərrüfatının ərazi təşkili, onun sahə və ərazi strukturunun formalaşmasına təbii-coğrafi şəraitin, iqtisadi və sosial-demoqrafik potensialın təsiri, regionun davamlı inkişafında iri təsərrüfat sistemlərinin rolu, müstəqillik illərində həyata keçirilən aqrar islahatlar və onların nəticələri ilə bağlı aparılan tədqiqat işləri öyrənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının strukturunda baş verən dəyişiklikləri tədqiq etmək, kənd təsərrüfatının daha səmərəli inkişaf istiqamətlərini müəyyənləşdirməkdir.

Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi qarşıya qoyulmuşdur:

- regional inkişafın idarə olunması xüsusiyyətlərinin açıqlanması;
- regional inkişafın idarə olunmasında təşkilati-iqtisadi işlərin müəyyən olunması;
- iqtisadi rayonda kənd təsərrüfatının inkişaf səviyyəsinin təhlili, inzibati rayonlararası, hündürlük qurşaqları üzrə əlaqə və fərqlərin qiymətləndirilməsi;
- iqtisadi rayonda kənd təsərrüfatı strukturunda baş verən dəyişikliklərə keçidin zəruriliyinin əsaslandırılması və investisiya cəlbediciliyinin təminatı.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** kənd təsərrüfatının ərazi təşkili, təbii-coğrafi və sosial-iqtisadi potensialdan istifadə edilməsinin elmi-nəzəri və praktiki məsələlərinə aid xarici və ölkə alimlərinin əsərləri və tədqiqat işləri təşkil edir. Tədqiqatçının anket sorğuları və çöl tədqiqatları zamanı əldə etdiyi ilkin məlumatlar mühüm rol oynayır

**Tədqiqat metodlarını** statistik-riyazi, müqayisəli təhlil, sistemli yanaşma, kartoqrafik (CİS texnologiyaları) və rayonlaşdırılma təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin illik hesabatları, AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun fond materialları, Azərbaycan Respublikası Prezidentinin aqrar siyasətə dair proqram və sərəncamları, Azərbaycan Respublikasının qanunları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- iqtisadi rayonun təbii şəraiti və iqtisadi potensialının kənd təsərrüfatının inkişafı və səmərəli ərazi təşkili baxımından qiymətləndirilməsi;
- kənd təsərrüfatının sahə və ərazi strukturunda baş verən dəyişikliklər;
- aqrar-sənaye müəssisələrinin yerləşdirilməsi və regionun inkişafında bu sahələrin rolunun yüksəldilməsi istiqamətləri;
- kənd təsərrüfatı sahələrinin davamlı inkişafa keçidi və idarə edilməsi yollarının müəyyənləşdirilməsi;

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- iqtisadi rayonda kənd təsərrüfatının idarə olunmasında regional siyasətin təkmilləşdirilməsinin zəruriliyi əsaslandırılmışdır;

- müstəqillik illərində kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər və onun əsas sahələri müəyyənləşdirilmişdir.

- iqtisadi rayonda kənd təsərrüfatı məhsullarını istehsal edən müəssisələrin idarə olunması strukturunu şərtləndirən amillər müəyyənləşdirilmişdir;

- Dövlət Proqramları çərçivəsində iqtisadi rayonun inkişaf dinamikası təhlil olunaraq müasir vəziyyəti və regional dəyişikliklərin xarakteri qiymətləndirilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat zamanı əldə edilmiş elmi nəticələr Quba-Xaçmaz iqtisadi rayonuna aid olan hər bir inzibati rayonun kənd təsərrüfatının perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi, onun səmərəli ərazi təşkili və kəndlərdə əmək ehtiyatlarından istifadə edilməsi zamanı əhəmiyyətlidir.

Aparılan təhlillərdən əldə edilən nəticələr gələcəkdə elmi-tədqiqat işlərində və ali məktəblərdə tədris prosesində mühüm mənbə kimi istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.**

“Современные проблемы науки и образования” Международная научно-практическая конференция (Москва, 2016); “Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq”, Beynəlxalq elmi-praktik konfrans (Gəncə, 2016); “Azərbaycan Respublikasında demoqrafik inkişaf: Əhali məskunlaşmasının perspektivləri və regional problemləri” Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri (Bakı, 2016) “Наука, Образование, Личность” Международная научно-практическая конференция (Ставропол, 2016);

Tədqiqat işinin mövzusuna dair 14 elmi məqalə çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin həcmi 160 səhifə olmaqla, giriş, 3 fəsil, əldə edilmiş nəticə və təkliflərdən, istifadə edilmiş 133 ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 38 cədvəl, 23 diaqram və 6 xəritə-sxem verilmişdir.

## İŞİN QISA MƏZMUNU

Girişdə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası, elmi yenilikləri, praktiki əhəmiyyəti müəyyən edilir.

Birinci fəsil **“Kənd təsərrüfatının ərazi təşkilinin nəzəri və metodiki əsasları”**na həsr edilmişdir. Bu fəsildə əsasən kənd təsərrüfatının nəzəri və metodiki əsasları, təbii-coğrafi şəraitin kənd təsərrüfatının ərazi təşkilində rolu, regionun əhalisi və əmək ehtiyatları ətraflı təhlil edilmiş, həmçinin

kənd təsərrüfatının ərazi təşkilində yaranan problem iqtisadi-coğrafi baxımdan tədqiq edilmişdir.

Müasir dövrdə bəşəriyyətin ən qlobal problemlərindən biri əhalinin ərzaq məhsulları ilə təmin edilməsidir. Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bu da kənd təsərrüfatının inkişafına yeni təkan vermiş və onun modernləşdirilməsini sürətləndirmiş, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, bu sahəyə dövlətin maliyyə resursları cəlb edilərək ölkənin aqrar potensialının genişləndirilməsinə başlanılmışdır. Belə ki, 2014-cü ildə respublikamızda ÜDM-də kənd təsərrüfatının payı 5,3% olduğu halda, 2015-ci ildə bu göstərici 6,2% təşkil etmişdir. 2015-ci ildə kənd təsərrüfatında ümumi məhsulun dəyəri 5635,3 milyon manat olmuşdur. Bu ildə respublikanın kənd təsərrüfatından əldə etdiyi gəlirin 11,02%-i (551,3 mln man.) Quba-Xaçmaz iqtisadi rayonunun payına düşmüşdür.

Quba-Xaçmaz iqtisadi rayonu ölkənin mühüm kənd təsərrüfatı regionlarından biri olduğundan onun təsərrüfat quruluşunda bu sahənin payı çoxdur. Regionda kənd təsərrüfatı məhsullarının çeşidinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi və onun ixrac istiqamətli olmasına nail olmaq üçün dövlət səviyyəsində konkret tədbirlər görülür, bu sahədə intensiv üsulun tətbiqinə üstünlük verilir.

Respublikamızda kənd təsərrüfatının öyrənilməsi istiqamətində genişmiqyaslı işlər aparılmışdır. B.T.Nəzirova tərəfindən Böyük Qafqaza aid olan dörd iqtisadi rayonun, o cümlədən Quba-Xaçmaz iqtisadi rayonunun təbii ehtiyat potensialının, xüsusilə kənd təsərrüfatının yerləşməsi, inkişaf yolları və problemləri əsaslı təhlil olunmuşdur. A.A.Qurbanzadə Azərbaycanın aqrar-sənaye kompleksinin problemlərini tədqiq etməklə yanaşı, Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının inkişafına təsir göstərən təbii və antropogen amilləri, kənd təsərrüfatının səmərəli ərazi təşkili, onun emal müəssisələrinin yaradılması üçün metodoloji yanaşma işləyib hazırlamışdır. Ə.C.Əyyubov Quba-Xaçmaz iqtisadi rayonunun aqroiqlim ehtiyatlarının kənd təsərrüfatının müxtəlif sahələrində səmərəli istifadə edilməsi yollarını öyrənmiş, bitkiçilik məhsulları istehsalını artırmaq üçün aqroiqlim rayonlaşdırılması aparmış və beş aqroiqlim rayonu ayırmışdır. İ.N.Alıyev dünyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatının ərazi təşkili və idarəedilməsinin sosial-iqtisadi münasibətlərinin inkişafına təsir göstərməsini qeyd etmişdir. Z.T.İmrani regionun təsərrüfat kompleksinin inkişafında mövcud problemləri tədqiq etmiş, təbii şərait və iqtisadi amilləri nəzərə almaqla

kənd təsərrüfatının daha perspektivli və gəlirli sahələrini müəyyənləşdirmiş, sahələrarası əlaqələrin qurulması üstünlüklərini və əhali məskunlaşması məsələlərinin kənd təsərrüfatı ilə əlaqəsini öyrənmişdir. N.Ə.Paşayev, N.H.Əyyubov, Z.N.Eminov respublikanın müasir iqtisadi, sosial potensialını tədqiq etməklə yanaşı, bütövlükdə aqrar-sənaye kompleksini tədqiq etmişlər.

Bunlarla yanaşı, xarici ölkə alimlərindən K.İ.İvanov konveyr sisteminə əsaslanan coğrafi funksional strukturların formalaşması konsepsiyasını irəli sürmüşdür. A.N.Rakitnikov aqrar-sənaye kompleksində istehsalın yerləşməsi prinsipinə daha çox üstünlük vermişdir. V.Q.Kryuçkov kənd təsərrüfatı rayonunu bir ərazi sistemi kimi qəbul etmiş və kənd təsərrüfatı məhsullarını əmtəəlik səviyyəyə çatdırmaqla aqrar sənaye kompleksinin əmələ gəlməsini qeyd etmişlər. Bununla yanaşı L.A.Aksenov Avropa İttifaqı ölkələri və ABŞ-da fəaliyyət göstərən fermerlərə kənd təsərrüfatı sahələrinin inkişafı üçün dövlətin maliyyə-texniki yardımının məqsəd və vəzifələri, onlara göstərilən köməyi təhlil etmişdir. Hayati Doğan və Ogün Coşkun isə bitkiçilik və hevandarlıq sahələrinin coğrafiyasını təhlil etməklə yanaşı onların hər birinin yerləşməsini, kənd təsərrüfatının inkişafına təbii və iqtisadi amillərin təsirini, aqrar-sənaye kopleksini, ölkələr üzrə ixtisaslaşmasını və müasir inkişaf problemlərini ətraflı təhlil etmişlər.

Göstərilən elmi-metodiki mənbələr, müxtəlif məzmun və məqsədləri əhatə etsə də, tədqiqat apardığımız regionun daha yaxşı öyrənilməsi və qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün yardımçı rolunu oynamışdır.

Quba-Xaçmaz iqtisadi rayonunun tərkibinə Quba, Qusar, Şabran, Siyəzən və Xaçmaz inzibati rayonları daxildir. İqtisadi rayonun sahəsi 6,96 min $km^2$-dir və respublika ərazisinin 8,1%-ni əhatə edir. İqtisadi rayon Böyük Qafqazın şimal-şərqində yerləşməklə relyefinə görə əsasən beş hissədən – ovalıq (əsas hissəsin Samur-Dəvəçi ovalığı əhatə edir), dağətəyi, alçaq dağlıq, orta dağlıq və yüksək dağlıqlıqdan ibarətdir. İqtisadi rayon respublikanın ən vacib kənd təsərrufatı regionlarından biridir. Ərazidə məhsulların yığımı, məhsuldarlığı və keyfiyyəti iqlim şəraiti ilə bağlıdır.

Tədqiqat ərazisinin iqlimi kənd təsərrüfatının inkişafı üçün çox əlverişlidir. Regionda aparılan iqlim müşahidələrinə görə ayrı-ayrı meteoroloji məntəqələrdə havanın orta illik temperaturu müxtəlifdir. Məsələn, Quba və Qusarda orta illik temperatur 9,8°C-dən yüksək olmadığı halda, Şabran, Siyəzən və Xaçmazda orta illik temperatur 12,9°C təşkil edir. Yüksək dağlıq ərazidə isə bu göstərici 4,5°C-dir.

Ərazidə yağıntılar il ərzində bərabər paylanır. Belə ki, ilin soyuq dövründə Quba və Qusar rayonlarında 214 mm, isti dövrdə isə 268 mm yağıntının düşməsi qeydə alınmışdır. Şabran, Siyəzən və Xaçmaz rayonlarında bu göstərici bir qədər fərqlidir. Məsələn, soyuq dövrdə 172 mm, isti dövrdə isə 106,9 mm, yəni Quba və Qusar rayonlarına nisbətən az yağıntı düşür. İlin fəsilləri üzrə yağıntı bütün hallarda payız aylarında 113-172 mm arasında dəyişir. İllik yağıntının miqdarı dağətəyi və dağlıq zonada 278-483 mm arasında tərəddüd edir. Havanın illik nisbi rütubətliyi dağətəyi və yüksək dağlıq ərazilərdə 66-78% arasında, düzənlikdə isə 76-78% təşkil edir.

İqtisadi-coğrafi rayonda aparılan torpaq islahatları nəticəsində ümumi torpaq fondunun 285,6 min ha-ı (41,0%) dövlət mülkiyyətində saxlanmış və 231,3 min ha-ı (33,2%) bələdiyyə mülkiyyətinə verilmişdir. Regionun ümumi torpaq fondunun 179,6 min ha-ı (25,8%) özəlləşdirilərək vətəndaşların xüsusi mülkiyyətinə keçmişdir. Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatına yararlı torpaqların mülkiyyət formalarına görə dövlət mülkiyyətində 127,1 min ha, bələdiyyə mülkiyyətidə 141,1 min ha, xüsusi mülkiyyətidə 163,1min ha olmaqla paylanmışdır.

Əhalisinin sayına görə Quba-Xaçmaz iqtisadi rayonu respublikanın iqtisadi rayonları arasında yeddinci yeri tutur. Burada 532,6 min nəfər (2016-cü il) əhali olmaqla ümumi ölkə əhalisinin 5,5%-ni təşkil edir. Əhalinin sayına görə iqtisadi rayonda Xaçmaz rayonu qabaqcıl yeri tutur. Bu rayonda əhali 173,2 min nəfərdir və iqtisadi rayon əhalisinin 32,5%-ni təşkil edir.

Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin sayı 1989-1999-cu illərdə yüksək templə (21,0%) artmışdır. Göstərilən dövrdə iqtisadi rayonda ən yüksək artım tempi Xaçmazda (24,6%) və Qusarda (20,5%), ən aşağı artım tempi isə Siyəzən rayonunda (16,5%) qeydə alınmışdır. Lakin sonrakı dövrlərdə əhalinin artımı nisbətən zəif templə getmişdir. 1999-2009-cu illərdə əhalinin sayı 47,2 min nəfər və ya 10,7% artmış və bu dövrdə əhalinin sayı orta hesabla ölkə üzrə olan kəmiyyətə yaxın tempdə olmuşdur (12,2%). Regiona daxil olan inzibati rayonlarda əhalinin sayının artım tempi az fərqlənir. Bununla yanaşı, Şabran və Siyəzən rayonlarında əhalinin sayı 12,0-12,5% olmaqla daha sürətlə artır.

İqtisadi rayon əlverişli iqtisadi-coğrafi mövqedə yerləşir. Regionda əhalinin iş yerləri ilə təminatında olan problemlər miqrasiyanın intensivliyini yüksəltmişdir. Uzun illər regionda əhalinin miqrasiyası yüksək olmuş, son vaxtlarda isə nisbətən azalmışdır. 2011-2014-cü illərdə miqrasiya saldosu -8,9 min nəfər olmuşdur.

**"Kənd təsərrüfatnın strukturunda baş verən dəyişikliklər"** adlanan ikinci fəsildə kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər, iqtisadi rayonun inkişafında Aqrar–Sənaye Kompleksinin rolu, bitkiçilik və heyvandarlığın hündürlük qurşaqları üzrə ərazi təşkili verilmiş və CİS (coğrafiya informasiya sistemləri) texnologiyasının yeniliklərindən istifadə edərək 1:200 000 miqyaslı xəritələri hazırlanmışdır.

Cədvəl 1.

Kənd təsərrüfatı strukturunda baş verən müasir dəyişikliklər

| | Əkin sahəsi (ha) | | | Məhsul istehsalı (ton) | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2014 | +artma/ -azalma | 2000 | 2014 | +artma/ -azalma |
| Buğda | 31634 | 74143 | +2,3 dəfə | 72329 | 152871 | +2,1 dəfə |
| Arpa | 7545 | 27440 | +3,6 dəfə | 17262 | 52252 | +3,1 dəfə |
| Qarğıdalı | 2549 | 1423 | 80% azalıb | 8968 | 4970 | 80% azalıb |
| Alma | 17121 | 21914 | +1,3 dəfə | 86996 | 186931 | +2,2 dəfə |
| Armud | 1731 | 884 | -2 dəfə | 10536 | 5073 | -2,1 dəfə |
| Gilas | 1138 | 2137 | +1,9 dəfə | 6895 | 12279 | +1,8 dəfə |
| Qoz | 547 | 464 | 20% azalıb | 1369 | 980 | 40% azalıb |
| Fındıq | 1674 | 5645 | +3,4 dəfə | 1937 | 3758 | +1,9 dəfə |
| Üzüm | 2407 | 894 | -2,7 dəfə | 9441 | 6792 | 40% azalıb |

Mənbə: Azərbaycanın kənd təsərrüfatı, 2013. Bakı: DSK, 2014, 637 s., Azərbaycanın kənd təsərrüfatı, 2014. Bakı: DSK, 2015, 674 s.

Müasir dövrdə Quba–Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının strukturunda meyvəçilik, tərəvəzçilik, kartofçuluq, taxılçılıq, üzümçülük, maldarlıq, qoyunçuluq və quşçuluq əsas yer tutur (Cədvəl 1.). Sovet dövründə bu sahələrlə yanaşı, tütünçülük, qarğıdalı, düzən ərazilərdə zəfəran, darı, üzüm və bostan bitkiləri əkilirdi. Bunların müəyyən dövr ərzində əkinləri tədricən azalmış və ya tamamilə əkilmir. Burada zəfəran və tütün əkinləri tamamilə aradan qaldırılsa da, üzüm və qarğıdalı əkinləri müstəqilliyimizin ilk illərində ciddi problemlərlə üzləşmişdir. 2014-cü ildə respublikada əkilən darının 94,1%-i (80 ha, o cümlədən Şabranda 77 ha) bu iqtisadi rayonun payına düşmüşdür.

Müstəqillikdən əvvəlki dövrdə Qusar rayonunda 300 ha çəltik sahəsi, iqtisadi rayonda isə 400 ha tut bağları mövcud olmuşdur. Amma müstəqillik illərində bu sahələr tamamilə ləğv edilsə də, tut ağacları yalnız həyətyanı sahələrdə qalmaqdadır. Sovet dövründə regionda heyvandarlığın strukturunda donuzçuluq olsa da, hazırda yalnız Xaçmaz rayonunda cəmi 479 donuz saxlanılır. Broyler təsərrüfatı isə müstəqillik illərində yüksək sürətlə inkişaf etdirilmişdir.




Tərtib etdi: Vüsal Cavadov

Mənbə: Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayonlarının statistika idarələrinin 2013-cü il məlumatları

hündürlük qurşağının həm təbii şəraitinin əlverişli olması, həm də suvarma əkinçiliyinin geniş yayılmasıdır. Regionun ikinci əlverişli zonası isə dəmyə əkinçiliyi hesabına 501-1000 m hündürlük qurşaqları arasındadır. 201-500 m intervalındakı yüksəklik qurşağının təbii şəraiti əlverişli olsa da, suvarma imkanlarının məhdudluğu ilə əlaqədar olaraq, burada əkin sahələri daha azdır. 1500 m-dən yüksək ərazilərdə isə əkin sahəsinin ən az olmasının səbəbi iqlim şəraiti ilə əlaqədardır (şəkil 1).

Cədvəl 2.

Quba-Xaçmaz iqtisadi rayonunda hündürlük qurşaqları üzrə bitkiçiliyik məhsullarının becərilməsi.

| **Bitkiçilik sahələri** | | **Hündürlük qurşaqları** | | | | |
|---|---|---|---|---|---|---|
| | | -27-200 metr | 201-500 metr | 501-1000 metr | 1001-1500 metr | 1501-metrdən yüksək |
| Taxıl | Əkin sahəsi, ha | 47091,5 | 13776,5 | 26980,5 | 4834,7 | 300 |
| | Yığımı, ton | 109663 | 24870 | 51986 | 9353 | 632 |
| | Məhsuldarlığı, sent/ha | 23,3 | 18,1 | 19,3 | 19,4 | 21,1 |
| Meyvə | Əkin sahəsi, ha | 12829,11 | 10121,02 | 7626,6 | 928 | Əkilməyib |
| | Yığımı, ton | 94942,2 | 81822,4 | 38822,2 | 4928 | |
| | Məhsuldarlığı, sent/ha | 80 | 86,9 | 56 | 53,1 | |
| Tərəvəz | Əkin sahəsi, ha | 4762 | 1084 | 1135 | 446 | 139 |
| | Yığımı, ton | 110470 | 17164 | 14226 | 5310 | 1371 |
| | Məhsuldarlığı, sent/ha | 232 | 158,4 | 125,4 | 119,1 | 98,7 |
| Kartof | Əkin sahəsi, ha | 1168,5 | 648 | 1282,1 | 848 | 286 |
| | Yığımı, ton | 11883,4 | 5916,5 | 11810,4 | 8012,2 | 2558 |
| | Məhsuldarlığı, sent/ha | 101,7 | 91,3 | 92,1 | 94,5 | 89,5 |
| Üzüm | Əkin sahəsi, ha | 729 | 143 | 21 | Əkilməyib | |
| | Yığımı, ton | 5308 | 933 | 109 | | |
| | Məhsuldarlığı, sent/ha | 72,8 | 65,2 | 51,9 | | |

Mənbə: Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayonlarının icra hakimiyyətlərinin kənd təsərrüfatı şöbələrinin 2013-cü il məlumatları əsasında hazırlanmışdır.

Kənd təsərrüfatının rentabelliyinə nəzər yetirsək görərik ki, bu iqtisadi rayonda ixtisaslaşan sahələr, o cümlədən tərəvəzçilik ən çox gəlir gətirən sahədir. Tərəvəzçiliyin hər ha-dan 2921 manat gəlir əldə olunur. Burada

kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər nəticəsində tamamilə əkilməyən tütünçülük ən yüksək rentabelliyə malik sahələrdən biridir. Belə ki, 2014-cü ildə respublikada 1 ha məhsulun satışından əldə olunan gəlir 1540 manat təşkil etməklə bu iqtisadi rayonda ixtisaslaşmış sahə olan meyvəçilikdən daha gəlirlidir. Regionda tütünçülüyün inkişafı üçün 501-1000 m hündürlük qurşağında əlverişli təbii şərait mövcuddur. Bu sahəni inkişaf etdirmək daha əlverişli və gəlirli olardı.

Kənd Təsərrüfatı Nazirliyinin verdiyi məlumata əsasən respublikada taxılın illik adambaşına norması 134,7 kq, kartof isə 44,4 kq-dır. İqtisadi rayonda adambaşına 375,8 kq taxıl və 76,5 kq kartof istehsal olunur və əhalinin tələbatından xeyli artıqdır.

Quba-Xaçmaz iqtisadi rayonunda isə kənd təsərrüfatına yararlı torpaq sahəsi 386,6 min ha olub ölkə üzrə kənd təsərrüfatına yararlı torpaq sahəsinin 8,1%-i burada yerləşir. 696,5 min ha əraziyə malik ovalıq və dağətəyi ərazidə yayı quraq keçən mülayim-isti iqlim tipi hakim olduğundan əkin sahələrinin 33,9%-ni, yəni 131,2 min ha-nı suvarılan torpaqlar təşkil edir. Relyef və iqlim şəraitindən asılı olaraq ərazinin (255,4 min ha) 66,1%-i isə dəmyə əkinçiliyinin payına düşür.

Quba-Xaçmaz iqtisadi rayonunun aqroiqlim, torpaq və su ehtiyatları, onların coğrafi yerləşməsi taxılçılığın ərazi təşkilində və inkişafında mühüm yer tutur. Tədqiqat ərazisində strateji əhəmiyyətə malik **taxılçılığın** inkişafı üçün olan potensial imkanları nəzərə alaraq regionun daxili tələbatını yerli taxıl məhsullarının istehsalının artırılması və ölkənin xaricdən idxalı etdiyi məhsulun bir hissəsini yerli istehsal hesabına əvəzləməklə ödəmək olar. Taxılçılıq təbii-iqlim şəraitindən asılı olaraq yazlıq və payızlıq növlərinə bölünür. Quba-Xaçmaz iqtisadi rayonunda payızlıq taxılın tərkibində buğda və arpa, yazlıq taxılın tərkibində isə arpa, dənlik qarğıdalı üstünlük təşkil edir. Regionun dənli bitkilərindən buğda, apra, vələmir, çovdar və qarğıdalı mühüm rol oynayır. Azərbaycan müstəqillik qazandıqdan sonra iqtisadi rayon taxıl məhsullarının istehsalında mühüm yer tutur. Regionda kənd təsərrüfatı məhsulları istehsalının təşkilində istehlak bazarının tələbatı, ərazinin təbii-iqlim şəraiti və iqtisadi amillər nəzərə alınır. Odur ki, 2012-ci ildə ölkədəki taxıl əkinlərinin 10,2%-ə qədəri və onun istehsalının 7,9%-i Quba-Xaçmaz iqtisadi rayonun payına düşmüşdür.

2013-cü ildə iqtisadi rayonda ümumilikdə 93 min ha taxıl əkini mövcud olmuşdur, bunun da 50,7%-i -27-200 m arasındakı hündürlükdədir (cədvəl 2.). Ümumi taxıl yığımının 55,8%-i bu yüksəklik qurşağının payına düşür. Regionda ikinci ən çox əkin sahəsi 501-1000 m yüksəklik arasında yerləşir

ki, buna uyğun olaraq da ən çox taxıl bu yüksəklik qurşağında yığılmışdır. Regionun ən az əkin sahəsi 1501 m-dən yüksəklikdəki qurşağın ərazisidir. Burada cəmi 300 ha taxıl əkilmiş və 632 ton məhsul yığılmışdır. Regionun bu hündürlük qurşağında ümumi taxıl əkinlərinin və yığımının 0,32%-ni təşkil edir.

Quba-Xaçmaz iqtisadi rayonunun çoxillik əkmələri içərisində **bağçılıq** çox mühüm yer tutur. İqtisadi rayonun yüksək dağlıq bölgələri istisna olmaqla ərazinin təbii şəraiti çoxsahəli bağçılıq təsərrüfatı üçün əlverişlidir. Belə ki, bunların içində respublikada **tumlu meyvəçilik** üzrə ixtisaslaşmış olması burada hansı meyvəçiliyin daha çox inkişaf etdiyini aydın göstərir. Tumlu meyvə bitkiləri respublikamızda geniş ərazilərdə becərilir və bol məhsul yığılır. Bu qrupdan ölkəmizdə əmtəəlik məhsul istehsalı üçün perspektivli sayılanlar alma, armud, heyva, əzgil və qismən yemişan sayılır. Tumlu meyvəçilik Quba, Xaçmaz və qismən Qusar rayonları ərazisində geniş yayılmışdır. 2014-cü ildə respublikada mövcud olan tumlu meyvə bağlarının 58,1%-ni bu iqisadi rayondakı bağlar təşkil etmişdir.

2013-cü ildə iqtisadi rayonda 31504,7 ha meyvə bağı olmuşdur ki, bunun da 40,7%-i -27-200 m arasındakı hündürlükdədir. Bu yüksəklik qurşağının daxilində regiondakı ümumi meyvənin 43,1%-i yığılmışdır. Regionda ikinci ən çox meyvə bağlarının 201-500 m arasında yerləşməsinə uyğun olaraq, məhsul yığımı və məhsuldarlıq (80 sent/ha) bu yüksəklik qurşağındadır. 1001-1500 m arasındakı yüksəklik qurşağında cəmi 928 ha meyvə əkilmiş və oradan 4928 ton məhsul yığılmışdır. Bu hündürlük qurşağı regionun ümumi meyvə bağlarının 3%-i, yığımının 2,3%-ni əhatə etməklə ən az meyvə bağı olan arealdır.

Quba-Xaçmaz iqtisadi rayonunda **üzümçülüyün** əkin sahəsinin 81,6%-i dəniz səviyyəsindən 200 m-ə qədər, 16%-i 201-500 m arası hündürlüklərdə, 2,4%-i isə 501-1000 m yüksəklikdəki qurşaqlarda yerləşmişdir. Məhsul yığımı da əkin sahələrinə müvafiq olaraq -27-200 m-də 83,6%, 201-500 m-də 14,7%, 501-1000 m-də isə 1,7% məhsul yığılmışdır. Üzümün məhsuldarlığına görə I yerdə 72,8 sent/ha ilə -27-200 m, II yerdə 201-500 m (65,2 sent/ha), III yerdə isə 501-1000 m (51,9 sent/ha) arasındakı qurşaq durur. Digər iki yüksəklik qurşaqlarında üzüm əkini yoxdur.

**Tərəvəz** bitkiləri Respublikamızda tarixən becərilən ənənəvi sahələrdəndir. Əkinçiliyin bu sahəsi ölkə əhalisinin tərəvəz məhsullarına olan tələbatının ödənilməsində böyük əhəmiyyət daşıyır. 2013-cü ildə Quba-Xaçmaz iqtisadi rayonunda ümumilikdə 7566,3 ha tərəvəz əkilmişdir ki, bunun da 62,9%-i -27-200 m arasındakı hündürlükdədir. Bu yüksəklik qurşağının daxilində regiondakı ümumi tərəvəz yığımının 74,4%-i toplanır.

Regionda ikinci ən çox tərəvəz sahəsinin 501-1000 m arasında yerləşməsinə baxmayaraq, məhsul yığımı 201-500 m yüksəkliklər arasında daha çox yığılmışdır. Regionun ən az tərəvəz əkini olan yüksəklik qurşağı 1501 m-dən yüksəklikdə olan ərazilərdir. Burada cəmi 139 ha tərəvəz əkilmiş və oradan 1371 ton məhsul yığılmışdır. Bu hündürlük qurşağı regionun ümumi tərəvəz sahəsinin 1,8%-i, yığımının isə 0,9%-ni təşkil edir.

2013-cü ildə iqtisadi rayonda 4232,6 ha **kartof** əkilmişdir ki, bunun da 27,6%-i (-27)-200 m, 30,3%-i isə 501-1000 m, kartof yığımının isə 30%-i -27-200 m, 29%-i 501-1000 m-ə qədər olan hündürlüklər arasında cəmlənmişdir. Regionda olan ən az əkin sahəsi 1501 m-dən yüksəkdə olan ərazilərdir.

**Heyvandarlıq** kənd təsərrüfatının ikinci böyük sahəsidir. Quba-Xaçmaz iqtisadi rayonunda heyvandarlığın yüksəklik qurşaqları üzrə ayrılmasında landşaft qurşaqlarına uyğunluğu nəzərə alınmışdır (Şəkil 2.). Belə ki, dəniz səviyyəsindən 200 m-ə qədər olan zona səhra və yarımsəhra zonası, 201-700 m-ə qədər olan ərazini quru-çöl zonası, 701-1800 m-ə qədər olan ərazini meşə zonası, 1801 m-dən yuxarı isə dağ-çəmən, çılpaq qaya və buzlaqlar zonalarına uyğun olduğundan burada şaquli qurşaqlıq buna uyğunlaşdırılmışdır. İqtisadi rayonda saxlanılan iri və xırda buynuzlu mal-qara, qoyun, keçi və donuzların ümumi sayı 465, min baş təşkil edir. Bunun da 150 min başını iri buynuzlu mal-qara (o cümlədən, inək və camışlar 68,3 min baş), 315,7 min başını qoyun və keçi, 479 başını isə donuz təşkil edir.

Quba-Xaçmaz iqtisadi rayonunda iri buynuzlu mal-qaranın 52,7%-i (78,5 min baş) -27-200 m arasındakı yüksəklik qurşağında, 26,9%-i 201-700 m arasındakı yüksəklik qurşağında cəmlənmişdir. Ancaq qoyun və keçilərdə bu bir qədər fərqlidir. Belə ki, onların 43,6%-i (137,6 min baş) -27-200 m arasındakı yüksəklik qurşağında, 31,6%-i 701-1800 m arasındakı yüksəklik qurşağında cəmlənmişdir. Donuzçuluq burada çox zəif inkişaf etmişdir. Bu sahə əsasən tələbat rayonuna meyl edir.

Quba-Xaçmaz iqtisadi rayonunda 2014-cü ildə Xaçmazda Qafqaz Konserv zavodunun fəaliyyəti genişləndirilmiş və tərəvəz məhsullarının qəbuluna başlanmışdır. Quba rayonunda "Saf" emal müəssisəsinin fəaliyyəti genişləndirilmişdir. Siyəzən rayonunda fəaliyyət göstərən "Casrian Coast Vineri and Vinyards" MMC müəssisəsində üzümün qıcqırmasının axıra qədər aparılmasını və beləliklə də məhsulun keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılmasını təmin edən yeni texnologiyaların tətbiqinə başlanılmışdır. İqtisadi rayonda Siyəzən Broyler quşçuluq fabriki ilə yanaşı 100-dən artıq özəl quşçuluq təsərrüfatı fəaliyyət göstərir. Rayon üzrə 2014-cü ildə 17,5 min ton quş əti istehsal olunmuşdur.




Şəkil 2. Quba-Xaçmaz iqtisadi rayonunda hündürlük qurşaqları üzrə heyvandarlığın ərazi təşkili.

Burada Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı və Ərzaq Təhlükəsizliyi Dövlət Proqramları çərçivəsində kənd təsərrüfatının inkişaf istiqamətləri, müasir şəraitdə iqtisadi rayonda kənd təsərrüfatının idarə edilməsi və əhalinin məşğulluğunun artırılmasında kənd təsərrüfatının rolu araşdırılmışdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, kənd təsərrüfatının ərazi təşkili və idarə edilməsi sosial-iqtisadi münasibətlərin inkişafına böyük təsir göstərir. Ölkədə kənd təsərrüfatının kompleks inkişafı və səmərəli ərazi təşkilinin təmin olunmasını elmi-nəzəri metodologiyaya istinad etməklə həyata keçirmək mümkündür. Bununla əlaqədar əhalinin ərzaq məhsulları ilə təmin olunması müasir dövrdə aktual problemə çevrilmişdir.

Dövlət Proqramları uzunmüddətli və davamlı inkişaf strategiyasına əsaslanan iqtisadi sistemlərin bazar prinsipləri əsasında həyata keçirilir. Bununla da kənd təsərrüfatı məhsullarını emal edən sənaye müəssisələrində artım tendensiyası və xammal bazarının tənzimlənməsi müşahidə olunmuşdur. Bu proqramlarda kənd təsərrüfatının aqrar-sənaye müəssisələri və iqtisadiyyatın digər aparıcı sahələri arasında optimal nisbətin yaradılması, keyfiyyətli məhsulların istehsal edilməsi, sertifikatlaşdırılma işlərinin aparılması, bazarın dövlət tənzimlənməsinin gücləndirilməsi, maliyyə-kredit mexanizminə spesifik yanaşılması və səmərəli xarici ticarət siyasətinin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasında ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına mümkün qədər təmin etmək, idxaldan asılılığı maksimum azaltmaq, istehlak bazarını keyfiyyətli məhsullarla təmin etmək, regionlarda ərzaq ehtiyatı bazarlarını yaratmaq və s. məsələlər Dövlət Proqramlarında öz əksini tapmışdır. Ərzaq təhlükəsizliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək, regionda kənd təsərrüfatı məhsullarının istehsal edilməsini stimullaşdırmaq məqsədi ilə aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- əhalinin ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq zəruri tədbirlər həyata keçirmək;
- ölkədə ərzaq məhsulları istehsalını artırmaq, əhalinin ərzaq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəmək;
- ölkə əhalisinin sağlam həyat tərzi üçün qəbul edilmiş normalara uyğun ekoloji cəhətdən təmiz, təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaq.

Aqrar-sənaye kompleksinin regional təşkilat strukturunun və idarə olunmasının təkmilləşməsi üzrə bu istiqamətdə tədbirlərin həyata

keçirilməsi həm əhalinin tələbatının ödənməsinə, həm də xarici bazara daha çox rəqabət qabiliyyətli məhsul çıxarılmasına şərait yaradır. Belə ki, aqrar sahədə dövlət idarəetməsinin əsas məqsədi kənd regionlarının davamlı inkişafını təmin etməklə yanaşı, əhalinin sosial rifahını yaxşılaşdırmaq olmalıdır. Bu öz nöbəsində əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsir göstərəcəkdir.

Aqrar sahə liberallaşmanın ən çox olduğu iqtisadi fəaliyyət sahəsi olmasına baxmayaraq, bu sahə dövlət idarəetməsinə daxil olan sistemdir. Kənd təsərrüfatı müxtəlif metodlarla idarə edilir. İdarəetmənin metodu gəlirləri, maliyyəni, kreditləri, sahibkarlığın inkişafını stimullaşdırılması, sığorta, rentabelliyi, əmək haqqını və sair məsələləri əhatə edən mexanizmlərə əsaslanır.

Regionda kənd təsərrüfatının səmərəli idarə olunması üçün aşağıdakıların yerinə yetirilməsi vacibdir:

- maddi-texniki bazasının möhkəmləndirilməsi və maliyyə-kredit mexanizminin səmərəli qurulması;
- sığorta işinin təşkili, baytarlıq və informasiya dəstəyinin göstərilməsi;
- istehsalçı və istehlakçıların maraqlarının qorunması, sahibkarlığın inkişafının stimullaşdırılması.

Quba-Xaçmaz iqtisadi rayonunda bütün dövrlərdə olduğu kimi hazırkı şəraitdə də kənd əhalisi üstünlük təşkil edir. İqtisadi rayonda kənd təsərrüfatında çalışanların nisbətinə görə 69,6%-lə (32881 nəfər) Qusar birinci, 64,9%-lə (45382) Quba rayonu ikinci yerdədir. Kənd təsərrfatında çalışanların sayına görə Quba birinci, Xaçmaz ikinci yerdə durur. İqtisadi rayonda fəaliyyət göstərən müəssisələrə diqqət yetirdikdə burada 433 müəssisə vardır. Fəaliyyət göstərən müəssisələrin 43,7%-ni, yəni 189-nu kənd təsərrüfatı müəssisələri təşkil edir. Ümumilikdə, hazırda regionun kənd təsərrüfatı və onun fəaliyyət göstərən emal müəssisələri əhali məşğulluğunun 20-30%-ni əhatə edir. Ona görə də regionun Quba, Xaçmaz, Xudat və s. kimi şəhərlərində fəaliyyət göstərən aqroemal müəssisələrinin yenidən qurulması və onların ixrac əhəmiyyətli məhsul istehsalını təşkil etmək qarşıda duran ən mühüm vəzifələrdən biridir.

Şabran və Siyəzən rayonları ərazisində -27-200, 201-500 m hündürlük qurşaqlarında püstə, badam bağlarının salınması, -27-200 və 501-1000 m arasındakı hündürlük qurşaqlarında taxıl, kartof, kələm əkin sahələrinin artırılması, (-27)-200 m hündürlük qurşağında üzümçülüyün inkişaf etdirilməsi və ikinci əkin kimi günəbaxan, qarğıdalı, yem noxudu, yonca və s. əkinlərin inkişaf etdirilməsi regionda kənd təsərrüfatının daha perspektivli sahələri hesab olunur.

# NƏTİCƏLƏR

**1.** İqtisadi rayonun təbii şəraiti və iqtisadi potensialı öyrənilməklə regional inkişafın idarə olunmasında sistemli yanaşma əsasında kənd təsərrüfatının strukturunda baş verən müasir dəyişikliklər müəyyən olunmuşdur. Belə ki, sovet dövrü ilə müqayisədə müstəqillik illərində tütün, qarğıdalı, üzüm, darı əkin sahələri azalmış, donuzçuluqda tənəzzül müşahidə edilmişdir. Müstəqilliyin ilk illərində əkinçilikdə taxılçılıq, meyvəçilik, tərəvəzçilik, kartofçuluq, heyvandarlıqda isə arıçılıq, quşçuluq, ət və süd istehsalında artım müşahidə olunmuşdur. Müstəqillik illərində kənd təsərrüfatında məhsul istehsalı 5,5 dəfə artmışdır ki, onun da 56,4%-i bitkiçiliyin, 43,6%-i heyvandarlığın payına düşmüşdür.

**2.** Kənd təsərrüfatının idarə olunmasında dövlətin apardığı iqtisadi siyasət və onun təkmilləşdirilməsinin zəruriliyi əsaslandırılmaqla, iqtisadi rayonda yeni emal müəssisələrinin yerləşdirilməsi və onların istehsal etdikləri məhsulların həcmi belə deməyə əsas verir ki, regionda aparılan aqrar islahatlar nəticəsində 2000-ci illərdən başlayaraq iqtisadi inkişafa nail olunmuşdur. Bu dövrdə, meyvə istehsalı 41%, kartof 26,8%, taxıl 20,1%, bostan 20,1%, tərəvəz istehsalı 16,3% artmışdır. Mal-qaranın sayı 20,7%, qoyun və keçilərin sayı 19,9%, quşların baş sayı 31,4% artmışdır. Həmçinin yumurta (80,8%), ət (48,3%), süd (47,8%), yun istehsalında (34,6%) artım qeydə alınmışdır. Artım dinamikası kənd yaşayış məntəqələrinin inkişafına səbəb olmuş, əhalinin miqrasiyası qismən də olsa azalmışdır.

**3.** İqtisadi rayonda istehsal müəssisələrin idarə olunması strukturunda kolxoz və sovxozlardan kəndli fermer təsərrüfatlarına və sahibkarlıq sisteminə keçidini şərtləndirən amillərin təhlili aparılmaqla kənd təsərrüfatı məhsulları istehsalının artırılması yolları müəyyən edilmişdir. Belə ki, əkinçilikdə taxılçılıq, meyvəçilik, kartofçuluq, heyvandarlıqda isə quşçuluq, arıçılıq, ət və süd sahələrində inkişafa nail olunmuşdur. Buna səbəb əhalinin gündəlik ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün kənd təsərrüfatına son 10 ildə ayrılan 1,86 mlrd manat investisiyaların əsas hissəsinin məhs bu sahələrə yönləndirilməsidir.

**4.** Müasir şəraitdə kənd təsərrüfatının inkişaf dinamikasının qiymətləndirilməsi aparılmış, dövlət proqramları çərçivəsində görülən işlər təhlil olunmuş və regional dəyişikliklər müəyyən olunmuşdur. 2004-2015-ci illərdə iqtisadi rayonda 5635,3 mln manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. İqtisadi rayonun əsas istehsal sahələrinə meyvə-tərəvəz istehsalı müəssisələri aiddir ki, onlar da respublikada istehsal olunan məhsullarının 10,6 %-ni verir. Buna səbəb iqtisadi rayonun

Bakı və Sumqayıt şəhərlərinə yaxınlığı və Rusiya Federasiyası ilə həmsərhəd olmasıdır.

**5.** Tədqiqat prosesində kənd təsərrüfatı sahələrinin yüksəklik qurşaqları üzrə paylanması öyrənilmişdir. Aparılan təhlillərə əsasən demək olar ki, ovalıq zonada əsasən taxıl, meyvə, tərəvəz və kartof, 200-500 m hündürlüklər arası taxıl, meyvə və kartof, 500 m-dən yüksək hissələrdə dəmyə əkinçiliyi inkişaf etdirilmişdir. Ümumi struktur baxımından isə 201-500 m yüksəkliklərdə əkin sahələri 3142 ha azalmış, -27-200 m yüksəkliklərdə isə dövlət fondu torpaqlarının mənimsənilməsi hesabına 6245 ha artım qeydə alınmışdır.

## Təkliflər

1. Regionun təbii-iqtisadi resurs potensialının tam və səmərəli istifadəsi məqsədi ilə müxtəlif bitkilər altında olan torpaqların məhsuldarlığını qorumaq və artırmaq, iqtisadi rayonun düzən hissələrinin suvarılan ərazilərində növbəli əkin sisteminin tətbiqini genişləndirmək, bitkiçiliklə məşğul olan fermer və şəxsi təsərrüfatlarda icbari və könüllü sığortaların tətbiq edilməsi, regionda strateji əhəmiyyət daşıyan bitkilərin istehsalını artırmaq üçün intensiv təsərrüfat üsulunun tətbiq edilməsi zəruridir.
2. Yerli şəraitə uyğunlaşan “Holştin-friz”, “Şarole” və “Simmental” heyvan cinslərinin alınması, yerli əhaliyə və fermerlərə güzəştli şəkildə verilməsi, heyvandarlığın inkişafında intensiv üsuldan istifadə etməklə əhalinin yerli məhsula tələbatın ödənilməsinin dəstəklənməsi lazım gəlir.
3. Yerli şəraitə uyğun olan yüksək məhsuldar tərəvəz və meyvə sortları yetişdirmək, onların əkin sahələrini genişləndirmək və inkişaf etdirmək məqsədilə dövlət tərəfindən subsidiyaların verilməsi, meyvəçiliyin və tərəvəzçiliyin inkişafında intensiv üsuldan istifadə etməklə ölkə əhalisinin yerli məhsullara tələbatının ödənilməsinin dəstəklənməsi lazımdır.

**Dissertasiyanın məzmununa uyğun aşağıdakı məqalələr çap olunmuşdur.**


1. Cavadov V.N. Quba-Xaçmaz iqtisadi rayonunda bitkiçiliyin ərazi təşkilinin iqtisadi-coğrafi problemləri/ Pedaqoji Universitet Xəbərləri. №4, Bakı, 2014, s.85-87
2. Cavadov V.N. Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf etdirilməsinin əhalinin məşğulluğunun artırılmasında əhəmiyyəti / Gənc Alimlərin Əsərləri. №10, Bakı, 2014, s. 79-83
3. Джавадов В.Н. Экономико-географические проблемы развития аграрной промышленности в Кубинско - Хачмазском экономическом

районе / Науковı Записки Сумского Державного Педагогıчного Унıверситету.Географıчıн Науки, Випуск 5. Суми, 2014, с 84-90.
4. Джавадов В.Н. Современное положение и перспективное развитие территориальной организации зерноводства в Губа–Хачмазском экономическом районе / Научно-Исследовательские публикации “Природа и экология Земли”. №15(19), Воронеж, 2014, с. 32-38
5. Cavadov V.N. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda hündürlük qurşaqları üzrə taxılçılığın ərazi təşkili / “Coğrafiya və təbii resurslar”. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. №1, Bakı, 2016, s. 74-78
6. Cavadov V.N. Quba-Xaçmaz iqtisadi rayonunda hündürlük qurşaqları üzrə bitkiçiliyin ərazi təşkili / “Coğrafiya və təbii resurslar”. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. №2, Bakı, 2016, s. 64-68
7. Джавадов В.Н. Территориальная организация овощеводства в Губа – Хачмазском экономико–географическом районе по высотным поясам / с.426-433 London Review of education and Science. №1 (19), Volume III, London, 2016, p 1029
8. Cavadov V.N. Azərbaycanda bitkiçiliyin ərazi təşkilində baş verən meyillər / Azərbaycan Dövlət Aqrar Universiteti. II cild, Gəncə, 2016, s. 303-307 (E.S.Bədəlovla birlikdə).
9. Джавадов В.Н. Территориальная организация виноградарства по высотным поясам в Губа–Хачмазском экономико-географическом районе / Современные проблемы науки и образования. Москва, 2016, с. 4-7
10. Джавадов В.Н. Население и трудовые ресурсы Губа–Хачмазского экономико-географического района/Наука, Образование, Личность. Ставрополь, 2016. с.105-110
11. Javadov V.N. Territorial organization of potato-growing by the altitude belts in Guba-Khachmaz economic-geographic region / Proceedings of Young Scientists, №13, Bakı, 2016, p. 56-60.
12. Javadov V.N. Territorial organization of fruit-growing by altitude belts in Guba-Khachmaz economic-geographic region / p.208-214, American Journal of Science and Technologies. №1(21) Volume III, USA, 2016, p. 1105 (with N.A. Pashayev)
13. Cavadov V.N., Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda təsərrüfatın ərazi təşkilinin nizamlanması və əhalinin iş yerləri ilə təminatının əsas istiqamətləri / Azərbaycan Coğrafiya Cəmiyyəti əsərləri. Bakı-2016, s. 344-360 (Paşayev N.Ə., Məmmədova D.A., Ərtunov N.B. ilə birlikdə)
14. Cavadov V.N. Müasir şəraitdə Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda kənd təsərrüfatının idarə edilməsi / “Coğrafiya və təbii resurslar”. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XIX Cild, Bakı, 2017, s.278-282

**В.Н.Джавадов**

# Современные региональные изменения в структуре сельского хозяйства и их управление в Губа-Хачмазском экономическом районе

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, 3-х глав, полученных результатов и предложений, а также из списка использованной литературы из 133-х наименований.

Во введении отмечается актуальность темы, уровень изученности, цели и задачи, объект и предмет исследования, теоретические и методологические основы, информационная база, научные новшества и практическое значение.

В первой главе речь идет о **"Теоретических и методических основах организации местности для сельского хозяйства".** В этой главе в основном была определена важность изучения местности для развития сельского хозяства и ее значение в хозяйственной структуре, теоретические и методические основы изучения сельского хозяйства, роль естественных географических условий в определении местности для сельского хозяйства, подход к проблеме с экономико-географической точки зрения, а также подробный анализ населения и рабочих ресурсов.

Во второй главе, под названием-**"Изменения происходящие в структуресельского хозяйства",** рассказывается о происходящих изменениях в сельско хозяйственной структуре, о роле агропромышленного комплекса (АПК) в развитии экономического района, о составлении карт в масштабе 1:200 000 для организации местности по животноводству и растениеводству на высоте с помощью новшеств географической информационной системы.

Третья глава: **"Исследование перспектив развития сельского хозяйства в Губа-Хачмазском экономическом районе".** В рамках государственной программы социально-экономического развития регионов Азербайджанской Республики, были изучены направления развития сельского хозяйства и обеспечение продуктовой безопасности, управление сельским хозяйством в современных условиях, роль сельского хозяйства в занятости населения.

По окончанию исследовательской работы были представлены результаты и предложения. Организация местности для развития сельского хозяйства была обоснована с научной точки зрения, были даны соответствующие рекомендации для развития направлений считающимися приоритетными в регионе.

По теме диссертации было издано 14 тезисов и статей.

**V.N.Javadov**

## Modern regional mutations in structure of agriculture in Guba-Khachmaz economic region and their management

## SUMMARY

The thesis has preface, 3 chapters, conclusions and suggestions. Dissertation is based on 133 various literatures.

Introduction the urgency themes, level of knowledge, purpose and objectives, subject of study, theoretical and methodological foundations, information base, scientific novelty and practical value.

The first chapter is devoted to **"Theory of determining the area of agriculture and methodical basics"**It describes the changes which occur in agricultural structure, theoretical and methodological foundations for the study of agriculture, the role of the natural geographical conditions in the definition of areas for agriculture, approach to the problem with Economic-geographical point of view as well as a detailed analysis of the population and working resources.

The second chapter represent**"The changes in the agricultural structure"** It describes the changes which occur in agricultural structure, about the role of agriculture in development of the economic region, on preparation of maps at a scale 1: 200 000 to determine areas for live stock and crop production height with the help of geographic information system innovations.

The third chapter represent **"Explore the prospects for the development of agriculture economy in Guba-Khachmaz economic region".** Under the state program of socio-economic development in regions of Azerbaijan Republic were studied areas of agriculture and ensuring of food security, management of agriculture in present conditions and the role of agriculture in employment.

At the end of research results and proposals were presented. Appointed ares of agriculture were justified from the scientific point of view, also were recommended appropriate advice for the increasing of areas which considered a priority in the region.

On the theme of the dissertation 14 theses and articles were published

Avtoreferat   AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115

**НАЦИОНАЛЬНАЯ АКАД ІАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРА акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**ВУСАЛ НАСИР оглу ДЖАВАДОВ**

# СОВРЕМЕННЫЕ РЕГИОНАЛЬНЫЕ ИЗМИНЕНИЯ В СТРУКТУРЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА И ИХ УПРАВЛЕНИЯ В КУБА-ХАЧМАЗСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертация на соискание ученой степени
доктора философии по географии

**БАКУ – 2017**